BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2015

**UOT 94(479-24)**

# 1988-1991-ci İLLƏRDƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT

**N.K.QAYBALIYEVA**
***Bakı Dövlət Universiteti***
***qaybaliyeva.nigar@mail.ru***

*Məqalə 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanın ictimai-siyasi vəziyyətini əks etdirir. Məqalədə eyni zamanda XX əsrin sonlarından etibarən Ermənilərin Azərbaycana qarşı torpaq iddiaları, Dağlıq Qarabağı özünə birləşdirmə iddiaları, Sumqayıt hadisələri ilə əlaqədar Beynəlxalq ictimaiyyətdə Azərbaycanın milli dəyərlərinin azaldılması öz əksini tapmışdır. Bütün bunlar Azərbaycan millətinin qırğınına səbəb oldu və sonda Azərbaycan Respublikası öz müstəqilliyini qazandı.*

**Açar sözlər:** ictimai-siyasi vəziyyət, 20 yanvar, Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi

XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Dünyada gedən ictimai-siyasi proseslər – xüsusilə SSRİ-də başlanmış yenidənqurma nəticəsində bu dövlətin tərkibində olan respublikalarda demokratik ruhun oyanışı fonunda Azərbaycanda dövlətçilik ənənələrinin bərpası uğrunda milli məfkurəçiliyin vüsət almasına şərait yaranmışdı. Bəhs edilən dövr üçün Azərbaycanın ictimai-siyasi həyatındakı hadisələr sırasında SSRİ-nin dağılması fonunda milli məfkurəçiliyin yeni mərhələsinin başlaması, Azərbaycan ərazilərinə qarşı erməni iddialarının daha geniş müstəviyə keçməsi, tarixi torpaqlarımız üzərində qurulmuş Ermənistan dövlətinin Dağlıq Qarabağdakı erməniləri separatçılığa təşviq etməsi və Rusiyanın milli dirçəlişimizin qisası kimi ermənilərə köməyi ilə ərazilərimizin işğalı, erməni terrorunun yeni mərhələsi kimi Sumqayıt hadisələri, İttifaq ordusu tərəfindən törədilən "20 yanvar" qırğınının Azərbaycanda nəinki qarşısını ala bilmədi, əksinə milli azadlıq hərəkatı keyfiyyətcə daha səmərəli mərhələyə daxil oldu.

XX əsrin 80-ci illərinin sonlarında artıq SSRİ-də kommunist partiyasının inzibati amirlik sistemi çökməkdə idi. Bunun ardınca isə 1988-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsini ələ keçirdikdən sonra Qorbaçov "partiya amirliyi"nə qarşı daha ciddi addımlar atmağa başladı. Moskvada Azərbaycanın mənafeyini müdafiə edə biləcək yeganə şəxs Heydər Əliyevin isə siyasi hakimiyyətdən kənarlaşdırılması ilə Azərbaycan xalqına qarşı hücumlar

başladı (1, 190).

Yaranmış siyasi vəziyyətdən istifadə edən ermənilər Azərbaycan xalqının öz tarixi torpaqlarından qovulmasının – deportasiyasının son mərhələsini həyata keçirməyə başladılar. 1988-ci il fevralın 19-da Yeravanda böyük anti-türk mitinqi keçirildi. “Ermənistan türklərdən təmizlənməli!”, “Ermənistanda ermənilər yaşamalıdır!” və başqa millətçi şüarlar səsləndi (2, 23).

1988-ci ildə Ermənistan SSR ərazisindən, öz dədə-baba yurdundan, 185 kənddən və başqa yaşayış məntəqələrindən 230 min azərbaycanlı qovuldu, onlara məxsus 31000 ev, şəxsi təsərrüfat, 165 kolxoz və sovxozun əmlakı talandı, 214 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi. Ermənistan, monoetnik bir respublikaya çevrildi. Ermənistanın Qafan və Mehri rayonlarından ilk qaçqınlar 1988-ci il yanvarın 25-də Azərbaycana pənah gətirdilər. Qaçqınların yeni dəstələri fevralın 18-23-də təqiblərdən yaxa qurtarıb Azərbaycana gəldilər. 1988-ci il fevralın 21-də ermənilər Yeravanda qalmış son məscidə hücum edərək onu dağıtdılar. Bu cür terror halları 1988-ci ildə geniş vüsət aldı və növbəti hal Vedibasarda, Xankəndində təkrarlandı. “1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün başlanması nəinki Ermənistandakı ayrı-ayrı millətçilərin və özgə ərazisini ələ keçirməyə can atan şəxslərin əməlləri idi, bu həm də böyük bir siyasətin – artıq baş vermiş müsbət proseslərə maneçilik törətməyə yönəlmiş siyasətin tərkib hissəsi idi” (5, 57).

Yeravandakı anti-azərbaycan mitinqlərindən ruhlanan Dağlıq Qarabağ erməniləri 1988-ci ilin əvvəllərindən Xankəndində (1923-cü ilin avqustundan 1991-ci ilin noyabrınadək Stepanakert adlanıb) ardı-arası kəsilməyən kütləvi mitinqlər, nümayişlər keçirirdi. Fevral ayının 15-18-də vilayətin, Şuşadan başqa, bütün rayon sovetlərində sessiya keçirildi və DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə verilməsini təklif edən qərarlar qəbul olundu. Mitinqçilərin tələbi ilə fevralın 20-də Vilayət Sovetinin sessiyası DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə verilməsi haqqında qərar qəbul etdi.

Ermənistanda qarşıya qoyulan vəzifəni “türksüz Ermənistan”, monoetnik dövlət qurmaq planını həyata keçirtdilər, sonra isə Dağlıq Qarabağın azərbaycanlılar yaşayan məntəqələrinin boşaldılmasına başladılar. Həmişə ədaləti, haqqı, insana qayğını, yer üzündə sülhü, əmin - amanlığı, xalqların azadlığını təbliğ edən Kreml işdə erməni özbaşınalıqlarına haqq qazandırmaq xəttini götürürdü (5, 66-67).

Ermənilərin çirkin siyasətinin növbəti planı Sumqayıt hadisələrində öz əksini tapmışdı. Əsas məqsəd isə dünya ictimaiyyəti qarşısında azərbaycanlılara qarşı mənfi fikir oyatmaqla onları “qaniçən”, “qəddar” obrazında təqdim etməklə onları ləkələmək idi. Bununla da Ermənistandakı azərbaycanlılara qarşı törətdikləri cinayətlərini və Dağlıq Qarabağdakı separatçı əməllərini pərdələyə bildilər. Hətta ilk qaçqın dəstələrinin Azərbaycan torpaqlarında yerləşdirilməsindən istifadə edən erməni millətçiləri təxribat törədib günahsız

insanları məhv etməkdən belə çəkinmədilər. “Pravda” 1988-ci il 1 mart tarixli buraxılışında yazırdı: “Sumqayıt şəhərində bir qrup xuliqan şuluqluq salmış, azqınlıq və zorakılıq şüarları olmuşdur. Şəhərdə şəraiti normal hala salmaq, intizamı və asayişi təmin etmək üçün tədbirlər görülmüşdür. İstintaq orqanları tədqiqat aparırlar. Sumqayıtda fevralın 28-dən 29-na keçən gecə qan töküldü. Martın 1-də şəhərdə komendat saatı elan olundu. SSRİ Müdafiə Nazirliyinin general-leytenantı V.V.Karayev Sumqayıtın komendantı təyin edildi” (4, 9). Sumqayıt hadisələrində ermənilərin xüsusi rolu olmuşdu. Onların əksəriyyəti bu hadisələrdə alət kimi istifadə edilirdilər. Bu erməni millətçi ideoloqlarının illərlə apardığı təbliğatın nəticəsi idi. Sumqayıt hadisələri ilə əlaqədar çıxışında SSRİ Baş prokurorluğunun istintaq qrupunun rəhbəri Qriqori Kotenko müsahibələrinin birində qeyd etmişdi ki, Sumqayıt hadisələrindən əvvəl şəhərdəki müəssisələrdə çalışan ermənilərin Qarabağda baş verən hadisələrlə bağlı mövqeyi Stella adlı erməni qızının vasitəsilə Yerevana çatdırılırmış, bu eyni zamanda reaksiyasız qalan ermənilərin “qara siyahı”ya düşməsi üçün bəhanələrdən biri olmuşdu.

Sumqayıt hadisələrinin təxribat olduğunu prokurorluq sənədləri də sübut edir: “1988-ci ildə Azərbaycan “Dəmiryol vağzalı” mehmanxanasının direktoru işləmiş Dianova Səmayə Mirzə qızı və inzibatçısı işləmiş Nəcəfova Fazilə Abas qızının ifadələrinə görə onlar 1988-ci ilin fevral ayında Ermənistandan gəlmiş bir neçə nəfər erməni millətindən olan şəxslərin mehmanxanada yaşamalarını və burada erməni millətindən olan müxtəlif şəxslərlə görüşmələrini görmüşlər. Həmin ermənilər özlərini onlara hüquq mühafizə orqanlarının işçiləri kimi təqdim etmiş və burada onlarla görüşməyə gələn ermənilərlə erməni dilində danışmışlar. İstintaq zamanı arxiv sənədləri əsasında müəyyən edilmişdir ki, 1988-ci ilin yanvar-fevral aylarında ermənilər tərəfindən Sumqayıt şəhərindəki əmanət kassalarından əmanətlər kütləvi şəkildə çıxarılmışdır. Müəyyən edilmişdir ki, 1988-ci ilin yanvar-fevral aylarında, yəni bilavasitə Sumqayıt şəhərində kütləvi iğtişaş baş verməmişdən əvvəl şəhərdə fəaliyyət göstərən 14 əmanət kassasından milliyyətcə erməni olan 84 əmanətçi tərəfindən 143.064 rubl məbləğində əmanətlər götürülmüşdür. “Kapitalbank”ın 2 saylı Sumqayıt filialı tərəfindən əmanətlərin verilməsinə dair təqdim edilmiş ilkin sənədlərdən görünür ki, yuxarıda göstərilən dövr ərzində 18 nəfər 1000 rubldan artıq, 7 nəfər 2000 rubldan artıq, 8 nəfər 3000 rubldan artıq, 4 nəfər 4000 rubldan artıq, 3 nəfər isə 5000 rubldan artıq məbləğdə əmanətlərini götürmüşlər. İş üzrə şahid qismində dindirilmiş, 1971-2007-ci illərdə 193 saylı əmanət kassasının böyük kassiri vəzifəsində işləmiş Quliyeva Yazgül Ələsgər qızı ifadəsində göstərmişdir ki, 1987-ci ilin axırlarından gedən söhbətlərdən, televiziyadan, qazetlərdən və digər mənbələrdən ona məlum olmuşdur ki, Dağlıq Qarabağda ermənilər mitinqlər təşkil edərək Azərbaycan Respublikasının tərkibindən çıxıb Ermənistan Respublikasına birləşmək istədiklərini bildirirlər. İstintaqın gedişində həmçinin müəyyən edilmişdir ki, 1988-ci ilin yanvar-fevral aylarında, yəni Sumqayıt şəhərində kütləvi iğtişaş baş vermə-

mişdən əvvəl şəhərdə fəaliyyət göstərən poçt bölmələrindən Ermənistanla çoxsaylı telefon danışıqları aparılmış, pul köçürmələri edilmişdir. Bununla bağlı həmin vaxtlar poçt bölmələrində işləmiş şəxslər müəyyən edilib dindirilmişdir. 11 saylı poçt bölməsində işləmiş Sorokina Marina Nikolayevna göstərmişdir ki, onunla birlikdə 1987-1988-ci illərdə həmin poçtda Jenya Arustamyan, Raisa Mejlumyan adlı qadınlar işləmiş, 1987-ci ilin axırlarından həmin şəxslər əksər hallarda yalnız öz aralarında söhbət etmiş, digər milliyyətdən olan işçilər onlara yaxınlaşdıqda, söhbətlərini kəsmişlər. Eyni zamanda, onlara çoxsaylı zənglər başlamış, yanlarına milliyyətcə erməni olan şəxslər gəlmiş və pıçıltı ilə söhbətlər aparmışlar. Bundan başqa, əvvəllər onun işlədiyi poçt bölməsinin xidmətlərindən istifadə etməyən ermənilər tərəfindən Ermənistana pul köçürmələrinin sayı artmışdır. Köçürmə məbləğləri 10-15 rubl olmuş, lakin köçürmələrin sayı çox olmuşdur" (6).

Fransız jurnalisti Aryel Kuri bu məsələyə toxunaraq yazırdı: "Ermənistan milli istiqlaliyyət birliyinin nümayəndələri M.Yermakyan və M.Zurabyan qətiyyətlə bildirmişdilər ki, 1988-ci il 28-29 fevral Sumqayıt hadisələrinin təşkilatçıları azərbaycanlılar deyil. Onlar demişlər: "Bizim əlimizdə faktlar və sübutlar var" . Onu qeyd edək ki, hadisələrə qiymət verərkən Azərbaycanda da vaxtilə təhrifə yol verənlərə rast gəlmək mümkün idi. Azərbaycan KP MK mart 1988-ci il tarixli büro iclasında Sumqayıt şəhər partiya komitəsinin birinci katibi C.Müslümzadəyə ən ağır partiya cəzası verildi. Lakin hadisələrin mahiyyəti açılmadı ( 5, 61).

XX əsrin 80-ci illərinin sonlarında siyasi şəraitin təsirindən asılı olaraq siyasi şüurun yüksəldilməsinə xidmət edən siyasi birlik və cəmiyyətlərin yaradılmasına başlanıldı. Bu cəmiyyət və təşkilatlar Sovet imperiyasına qarşı mübarizəyə qalxmış və əsas amalları ölkəmizin azadlıq və müstəqilliyini təmin etmək üçün siyasi ideologiyanı formalaşdırmaqdan ibarət olmuşdur. Xalq hərəkatının hərəkətverici qüvvəsi xalq, idarəedici qüvvəsi isə ziyalılar idi.

1988-ci ilin əvvəllərində Əbülfəz Elçibəyin rəhbərliyi altında 6 nəfərdən ibarət ilk siyasi özək yaradıldı. Mövcud siyasi şəraitdə xalqın təşkilatlanmağa, siyasi şüurunun yüksəldilməsinə olan ehtiyac nəzərə alınaraq, siyasi birlik və cəmiyyətlərin yaradılmasına başlandı. İlk dəfə Gənc alimlər şurası təşkil edildi. Gənc alimlər müəyyən mövzular ətrafında şurada keçirilən elmi diskussiyalarla yanaşı, imperiya əleyhinə fikirləri də təbliğ edirdilər. Az sonra "Çənlibel", "Müstəqillər", "Tərəqqi", "Qala", "Yurd", "Aşıq Ələsgər", "Ozan", Varlıq" və s. ictimai-siyasi təşkilatlar meydana çıxdı (7, 56).

Mərkəzin Dağlıq Qabağ məsələsindəki biganə mövqeyi isə Azərbaycandakı hərəkata yeni təkan verirdi. Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 24 mart 1988-ci il tarixli "1988-1995-ci illərdə Azərbaycan SSR-in DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqındakı" qərarı ictimai-siyasi vəziyyəti daha da gərginləşdirdi (8, 27). Moskvanın Dağlıq Qarabağdakı səlahiyyətli nümayəndəsi A.Volskinin ermənipərəst siyasəti, xüsusən nadir "Topxana" meşəsində sənaye obyekti tikintisinə başlanması xəbəri xalqı

hərəkətə gətirdi.

1990-cı il yanvarın 19-da Naxçıvan MSSR-in Ali Soveti Muxtar Respublikası SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi. Azərbaycanda xalqın ayağa qalxması, gündən-günə müstəqillik uğrunda mübarizə əzminin daha da artdığını görən SSRİ rəhbərliyini bu vəziyyət qorxuya salmışdı.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Fövqəladə vəziyyət və komendant saatı vaxtının elan edilməsi qanlı planları poza bilərdi. Odur ki, fövqəladə vəziyətin elan ediləcəyi xalqdan gizli saxlanılmışdı. Buna görə də AXC İdarə Heyəti komendant saatı tətbiq olunduğu təqdirdə orduya müqavimət göstərmədən piketləri götürmək haqqında qərar qəbul etmişdi. Piketçilər imperiyanın və respublikanın səlahiyyətli nümayəndələrinin ordunun şəhərə girməyəcəyi haqqında dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar. Xalqa məlumat verilməsin deyə yanvarın 19-da saat 19:27-də Azərbaycan Televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı. Fövqəladə vəziyyətin yanvarın 20-də, saat 00-dan başlanmasına göstəriş verildiyinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən ilk olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonu qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən desant, xüsusi cəza dəstələri hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, əliyalın adamlara avtomat silahlardan güclü atəş açırdılar. Qaçıb sığınacaqlarda gizlənənlər tanklar üzərindəki projektorların köməyi ilə axtarılıb tapılır, güllələbaran edilirdilər. Hərbçilər təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, şəhər nəqliyyatını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, adamları tankların tırtılları altına salıb əzabla öldürür, eybəcər hala salırdılar. Şəhərin küçələri öldürülmüş, yaralanmış adamların, qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Əsgərlər tibb müəssisələrini mühasirəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular. Rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə sovet ordusunun hücumu vaxtı 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdür. Evlərə, ictimai və şəxsi nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. Fövqəladə vəziyyət haqqında fərman artıq iş işdən keçəndən sonra, yanvarın 20-də saat 7-də elan olunmuşdu (1, 212).

Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək burada təşkil olunmuş, 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi, bu ağır günlərdə yaralı, heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu bildirdi. Gizlicə respublikadan qaçmış Ə.Vəzirovun yerinə Moskva yanvarın 24-də Ayaz Mütəllibovu Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirdi. İmperiya rəhbərləri, onların yerli

əlaltıları istədiklərinə nail oldular. Bakıda fövqəladə vəziyyət, komendant saatı tətbiq edildi. AXC dağıdıldı, bir çox fəal cəbhəçilər həbs olundu, ölkədən qaçdı, qeyri-leqal işə keçdi. AXC-nin hakimiyyətə gəlmək cəhdi baş tutmadı (1, 214).

Tarixin bu məsuliyyətli dövründə Azərbaycan Xalq Cəbhəsi artıq xalqa rəhbərlik edə bilmədi. Onun başçıları siyasi naşılıq göstərərək, hakimiyyəti bölüşdürmək barədə iqtidarla sövdələşməyə başladılar və xalq içərisində nüfuzlarını itirdilər. Belə ki, bir qrup ziyalının "75-lərin müraciəti" adlı müraciətindən "təsirlənən" iqtidar və AXC liderləri mayın ortalarında görüşüb Məşvərət Şurası yaratdılar. Azərbaycan SSR Ali Sovetinin sessiyası mayın 18-də Məşvərət Şurasında əvvəlcədən əldə olunmuş razılığa əsasən, müxalifətin maneəsinə rast gəlmədən prezident vəzifəsi təsis etdi və Ayaz Mütəllibovu respublikanın prezidenti seçdi (3, 84).

Naxçıvan MR-də həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana örnək oldu. Demokratik qüvvələrin tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilib "Azərbaycan Respublikası" adlandırıldı. Azərbaycan Cümhuriyyətinin bayrağı Dövlət Bayrağı kimi təsdiq olundu. Sentyabrın 8-də Azərbaycanda prezident seçkiləri keçirildi. Demokratik qüvvələr bu seçkiləri boykot etdilər. Prezident seçkiləri Naxçıvan MR ərazisində keçirilmədi. 8 sentyabr seçkilərinin nəticələrinə görə A.Mütəllibov yenidən prezident elan olundu (1, 235).

Prezident yerlərdə tərəfdarları vasitəsilə möhkəmlənmək üçün dövlət, hakimiyyət, idarəetmə quruluşunu və fəaliyyətini təkmilləşdirmək adı ilə oktyabrın 18-də rayonlarda, şəhərlərdə, şəhər rayonlarında icra hakimiyyəti başçıları vəzifəsini təsis etdi və bu vəzifələrə özünə dayaq hesab etdiyi adamları qoydu. Prezident idarəsi yaradıldı. Dövlət katibi və dövlət müşavirləri vəzifələri təsis edildi. İlk dövlət katibi Tofiq İsmayılov təyin edildi. Lakin nə bu tədbirlər, nə də əhalinin sosial vəziyyətini yaxşılaşdırmağa yönəldilən, dərin inflyasiya şəraitində real təsirə malik olmayan bəzi sosial güzəştlər A.Mütəllibovun mövqeyini möhkəmləndirə bilmədi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya aktı yekdilliklə qəbul edildi.

### ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. VII cild. Bakı: 2008.
2. Tahir Qaffarov. Azərbaycanın ən yeni tarixi. Bakı: 2005.
3. Azərbaycan Respublikası (1991-2001). Ramiz Mehdiyevin redaktəsi ilə. Bakı: 2001.
4. Eyruz Məmmədov. Erməni təxribatı (Sumqayıt, fevral 19988-ci il) Faktlar və mülahizələr. Bakı: 2005
5. Əli Məmmədov. Müstəqil Azərbaycan Dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu – 1997-ci il). Bakı: 1999.
6. http://www.prokurorluq.gov.az/sumqayit/?p=senedler&id=3
7. Oqtay Sultanov. 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə.

Bakı: 1995.
8. Nəsiman Yaqublu. Məmməd Əmin Rəsulzadə. Bakı: 1991.
9.http://metbuat.az/news/87078/sabir-rustemxanli-kqb--ye-90-sehifelik-ifade-verdim.html
10. Alı Balayev. Azərbaycanda ictimai-iqtisadi və siyasi vəziyyət. Bakı: 2005.

## 1988-1991- ГОД ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В АЗЕРБАЙДЖАНЕ

**Н.К.ГАЙБАЛИЕВА**

### РЕЗЮМЕ

Эта статья о социальной и политической ситуации в Азербайджане конец 80-х и начале 90-х годов XX века. В статье отражены территориальные притязание армян и наращивание их усилий для осуществление планов по оттражению Нагорного Карабаха от Азербайджана и присоединение к Армении. Для сорвать социальной стабильности в Азербайджане и дискредитировать азербайджанского народа в глазах международного сообщество лицами армянской национальности совершили кровавые событие в Сумгаите, в след за етим высшим руководствам СССР был введен контингент войск и осуществлен акт насилие против азербайджанского народа 20 января 1990 года. В связи с вышеизложенным народ азербайджана начал национально-освободительную борьбу за независимость.

**Ключевые слова:** социальная политическая ситуация, 20 января, Государственная независимость Азербайджанской Республики

## SOCIO-POLITICAL SITUATION IN AZERBAIJAN IN 1988-1991

**N.K.GAYBALIYEVA**

### SUMMARY

This article reflects the common political position of Azerbaijan late in 80s – early in 90s of the XX century. The article reflects Armenian territorial claims against Azerbaijan starting from the end of XX century which included combining Nagarno Karabakh to herself. All these caused Azerbaijanis' national struggle and our nation regained independence in the end.

**Key words:** Social political situation, January 20, State Independence of the Republic of Azerbaijan